BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ VƏ MULTİKULTURALİZM MƏRKƏZİ

TƏHLİL

Beynəlxalq münasibətlərdə rəsmi üzrxahlıq mexanizmi: Ermənistanın Azərbaycandan üzr istəməsinin zəruriliyi və əhəmiyyəti

Mətin Məmmədli

Hüseyn Sultanlı

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

NOYABR 2026

Beynəlxalq münasibətlərdə rəsmi üzrxahlıq mexanizmi: Ermənistanın Azərbaycandan üzr istəməsinin zəruriliyi və əhəmiyyəti

Giriş

Keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin təxminən otuz il davam edən mərhələsi yalnız dövlətlərarası təhlükəsizlik məsələsi ilə məhdudlaşmamışdır. Bu dövr ərazi bütövlüyünün pozulması, etnik təmizləmə, məcburi köçkünlük, mülki əhaliyə qarşı zorakılıq və ağır humanitar itkilərlə müşayiət olunmuş, Azərbaycan cəmiyyətinin kollektiv yaddaşında dərin iz qoymuşdur. 2020 və 2023-cü illərin hərbi-siyasi nəticələrindən sonra münasibətlərin normallaşdırılması üçün yalnız gələcəkdə güc tətbiqindən çəkinmək kifayət etmir. Keçmişdə baş vermiş hadisələrin nəticələrinə də məsuliyyətlə yanaşmaq lazımdır. Münaqişənin başa çatması insanların yaşadığı travmaları və tarixi ədalət gözləntilərini öz-özünə aradan qaldırmır. Bu baxımdan Ermənistan dövlətinin Azərbaycana və zərərçəkmiş şəxslərə rəsmi üzrxahlıq ünvanlaması davamlı sülhün mənəvi və siyasi əsaslarını möhkəmləndirə bilər.

Beynəlxalq münasibətlərdə rəsmi üzrxahlıq dövlətin keçmişdə törədilmiş və ya onun məsuliyyəti ilə əlaqələndirilən ağır haqsızlıqları tanımasının ifadəsidir. Belə bir müraciət zərərçəkənlərin yaşadığı iztirabı qəbul etməyə və oxşar halların təkrarlanmaması üçün siyasi iradə göstərməyə xidmət edir. Buna görə üzrxahlıq sadəcə diplomatik nəzakət forması deyil. O, qarşı tərəfin ağrısını tanıyan, ictimai yaddaşla siyasi dialoq arasında əlaqə yaradan mühüm simvolik addımdır. Beynəlxalq təcrübə göstərir ki, üzrxahlığın təsiri həm onun məzmunundan, həm də ifadə edildiyi siyasi və institusional şəraitdən asılıdır. Dövlət başçısının bəyanatı, birgə bəyannamə, parlament qətnaməsi, xatirə məkanına səfər və qurbanların anılması bu məqsədə xidmət edən fərqli vasitələrdir.[1] Lakin ümumi təəssüf bildirməklə konkret zərəri, zərərçəkənləri və məsuliyyəti açıq şəkildə tanıyan üzrxahlıq eyni siyasi məna daşımır.

Üzrxahlığın əsas funksiyaları

Rəsmi üzrxahlığın bir neçə əsas funksiyası vardır. İlk növbədə, o, zərərçəkmiş tərəfin tarixi təcrübəsini və itkilərini dövlət səviyyəsində tanıyır. Eyni zamanda, keçmiş davranışın qəbuledilməz olduğunu etiraf etməklə qarşılıqlı etimadın bərpasına kömək edir. Üzrxahlıq zorakılığın, güc tətbiqinin və mülki şəxslərə qarşı cinayətlərin yolverilməzliyini vurğulayır, tarixi məsələlərin daha açıq müzakirəsinə şərait yaradır. Bununla belə, üzrxahlıq reparasiyanı, zərərin ödənilməsini, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasını, hüquqi araşdırmaları və təhlükəsizlik təminatlarını əvəz

[1] https://www.cambridge.org/core/journals/international-organization/article/apology-diplomacy-the-international-image-effects-of-interstate-apologies/3B6C3465DE295102232DEC7FBA9FE6E8

etmir. Xüsusilə “müharibə cinayəti” və “soyqırımı” kimi hüquqi anlayışların tətbiqi ayrıca meyarlar və sübutların qiymətləndirilməsini tələb edir. Bu səbəbdən də Ermənistanın üzrxahlığının zəruriliyi iki bir-biri ilə bağlı məqsədlə əsaslandırıla bilər: qurbanların ləyaqətinə hörmət edilməsi və münaqişənin təkrarlanmaması üçün etimadın möhkəmləndirilməsi. Bu mənada üzrxahlıq sülhün alternativi deyil, onu məzmunca tamamlayan mexanizmdir.

Avropa təcrübəsi: Almaniyanın üzrxahlıq diplomatiyası

1970-ci il dekabrın 7-də Qərbi Almaniyanın kansleri Villi Brandt Varşava gettosu üsyanı qəhrəmanlarının abidəsi qarşısında diz çökərək nasist işğalının qurbanlarına ehtiramını bildirmişdir. Bu jest yazılı üzrxahlıq deyildi, lakin Polşada və beynəlxalq ictimaiyyətdə Almaniyanın tarixi məsuliyyəti qəbul etməsinin güclü rəmzi kimi qarşılanmışdır.[2] Elə həmin gün imzalanan Varşava müqaviləsində sərhədlərin toxunulmazlığı və mübahisələrin sülh yolu ilə həlli prinsipləri əksini tapmışdır.

Almaniya-Polşa təcrübəsinin Azərbaycan-Ermənistan münasibətləri baxımından əhəmiyyəti tarixi məsuliyyətin tanınması ilə siyasi normallaşmanın bir-birini tamamlamasındadır. Brandtın addımı göstərdi ki, hakimiyyətə gəlmiş yeni siyasi rəhbərlik əvvəlki dövrdə baş vermiş cinayətləri şəxsən törətməsə də, dövlətin tarixi məsuliyyəti barədə aydın mövqe bildirə bilər. Bununla yanaşı, Almaniya daxilində bu jestin tənqid olunması rəsmi üzrxahlığın dərhal ümumi ictimai razılıq yaratmadığını da göstərir.

Almaniya-İsrail: mərhələli barışıq modeli

Almaniya-İsrail münasibətlərində 1952-ci ildə kompensasiya mexanizminin yaradılması, 1965-ci ildə diplomatik münasibətlərin qurulması və sonrakı onilliklərdə siyasi-ictimai əlaqələrin genişlənməsi mərhələli normallaşma prosesinin əsas mərhələləri olmuşdur.[3] Almaniya Prezidenti Yohannes Rau 2000-ci il fevralın 16-da İsrail parlamentində çıxış edərkən Holokost qurbanlarının xatirəsi qarşısında baş əydiyini bildirmiş və bağışlanma istəmişdir.

Bu təcrübə göstərir ki, üzrxahlıq yalnız barışığın başlanğıcında deyil, münasibətlərin müəyyən qədər inkişaf etdiyi mərhələdə də əhəmiyyət daşıya bilər. Almaniya-Polşa münasibətlərində simvolik jest siyasi normallaşma addımı ilə eyni vaxta təsadüf etmişdi. Almaniya-İsrail münasibətlərində isə rəsmi bağışlanma müraciəti uzun illər davam edən əməkdaşlıqdan sonra səsləndirilmişdi. Buna görə üzrxahlığın təsiri onun

[2] https://archiv.diplo.de/arc-de/das-politische-archiv/das-besondere-dokument/warschauer-vertrag-2423064
[3] https://www.latimes.com/archives/la-xpm-2000-feb-17-mn-65409-story.html

hansı tarixdə verilməsindən daha çox, tarixi məsuliyyətə münasibətin nə dərəcədə aydın ifadə olunmasından asılıdır.

Ermənistan-Azərbaycan münasibətlərində də üzrxahlığın bütün siyasi və texniki məsələlər həll edilənədək təxirə salınması zəruri deyil. O, sülh sazişi, sərhəd təhlükəsizliyi və humanitar məsələlər üzrə addımlarla paralel həyata keçirilə bilər. Burada qeyd edilən tarixi hadisələr eyniləşdirilmir; müqayisənin məqsədi müxtəlif ölkələrin barışıq prosesində istifadə etdikləri siyasi və institusional vasitələri nəzərdən keçirməkdir.

Asiya təcrübəsi: Yaponiya, Koreya Respublikası və Çin

1910-1945-ci illərdə Koreya yarımadasında Yaponiyanın müstəmləkə idarəçiliyi məcburi əmək, istismar və qadınlara qarşı ağır zorakılıqla bağlı dərin tarixi narazılıqlar yaratmışdır. Yaponiya ilə Koreya Respublikası arasında diplomatik münasibətlər 1965-ci ildə normallaşsa da, tarixi ədalət məsələləri sonrakı dövrdə də gündəmdə qalmışdır.[4] 1998-ci ilin oktyabrında Yaponiyanın Baş naziri Keydzo Obuti və Koreya Respublikasının Prezidenti Kim De Çjun tərəfindən qəbul edilən birgə bəyannamədə Yaponiya tərəfi Koreya xalqına vurulmuş ciddi zərərə görə dərin peşmanlığını ifadə etmiş və səmimi üzrxahlıq bildirmişdir.

Həmin bəyannamə keçmişə münasibətlə gələcək əməkdaşlıq niyyətini bir sənəddə birləşdirməsi baxımından diqqətəlayiqdir. Sonrakı mədəni əlaqələr və 2002-ci ildə futbol üzrə dünya çempionatının birgə keçirilməsi siyasi yaxınlaşmanın ictimai münasibətlərə də müsbət təsir göstərə biləcəyini göstərmişdir.[5] Bununla belə, 2015-ci ildə "rahatlıq qadınları" məsələsinə dair razılaşma ətrafında yaranmış mübahisələr bir daha göstərdi ki, üzrxahlığın məzmunu və zərərçəkmişlərin prosesdə iştirakı xüsusi əhəmiyyət daşıyır.

Yaponiya və Çin 1972-ci ildə münasibətlərin normallaşdırılması zamanı müharibənin doğurduğu iztirablara münasibət bildirmişlər. 1995-ci ildə isə Yaponiyanın Baş naziri Tomiiçi Murayama müstəmləkəçilik və təcavüz nəticəsində vurulmuş zərərə görə açıq üzrxahlıq etmişdir.[6] Bu təcrübə göstərir ki, diplomatik normallaşma baş verdikdən sonra da tarixi məsuliyyətin tanınması istiqamətində addımlar davam etdirilə bilər.

Asiya təcrübəsindən üç nəticə çıxarmaq mümkündür. Birincisi, diplomatik münasibətlərin qurulması tarixi narazılıqları avtomatik aradan qaldırmır. İkincisi, üzrxahlığın birgə siyasi sənəddə ifadə olunması onun həm cəmiyyətlərdə, həm də beynəlxalq müstəvidə görünməsini gücləndirir. Üçüncüsü, zərərçəkmişlərin

[4] https://www.mofa.go.jp/region/asia-paci/korea/joint9810.html
[5] https://academic.oup.com/hawaii-scholarship-online/book/14380/chapter/168338574
[6] https://www.mofa.go.jp/announce/press/pm/murayama/9508.html

ehtiyaclarına və gözləntilərinə yetərincə diqqət yetirilmədikdə barışıq prosesinin nəticələri zəifləyə bilər. Bu baxımdan Ermənistanın mümkün rəsmi üzrxahlığı yalnız hökumətlərarası münasibətlərə deyil, işğalın və münaqişənin humanitar nəticələrini yaşamış Azərbaycan vətəndaşlarının ləyaqətinə və iztirablarının tanınmasına da yönəlməlidir.

Keçmiş Yuqoslaviya: siyasi liderlərin müraciətləri və ictimai barışıq

Keçmiş Yuqoslaviya ərazisində 1990-cı illərin silahlı münaqişələrindən sonra siyasi liderlərin digər xalqlara ünvanladıqları müraciətlər barışıq siyasətinin vasitələrindən birinə çevrilmişdir. 2003-cü ildə Serbiya və Monteneqronun prezidenti Svetozar Maroviç xorvatlara qarşı törədilmiş cinayətlərə görə üzrxahlıq etmiş, Xorvatiya Prezidenti Styepan Mesiç də qarşı tərəfin çəkdiyi iztirablarla əlaqədar üzrxahlıq bildirmişdir.[7] 2007 və 2010-cu illərdə Serbiya Prezidenti Boris Tadiçin müraciətləri, eləcə də Xorvatiya Prezidenti İvo Yosipoviçin mülki qurbanların xatirəsini yad etməsi bu yanaşmanın davamı olmuşdur.[8]

Bosniya və Herseqovina ilə bağlı 2003-cü ildə səsləndirilmiş üzrxahlıqlar, 2010-cu ildə Serbiya parlamentinin Srebrenitsa qətliamını pisləyən qətnaməsi və 2013-cü ildə Tomislav Nikoliçin bağışlanma istəməsi tarixi hadisələrin siyasi səviyyədə tanınmasının müxtəlif formalarını nümayiş etdirir. [9] Bununla yanaşı, həmin təşəbbüslər regiondakı bütün fikir ayrılıqlarını və qarşılıqlı etimadsızlığı aradan qaldırmamışdır. Bu, üzrxahlığın mühüm, lakin təkbaşına kifayət etməyən addım olduğunu göstərir.

Dövlət və cəmiyyət səviyyəsində üzrxahlığın tamamlayıcılığı

Dövlət rəhbərlərinin müraciətləri ilə yanaşı, dini və ictimai institutların təşəbbüsləri də diqqətəlayiqdir. Bunlara 1965-ci ildə Polşa və Almaniya katolik yepiskoplarının qarşılıqlı bağışlanma məktubları, 1967-ci ildə Yaponiya protestant kilsəsinin mövqeyi və 1994-cü ildə alman xristianların Niderland xalqına müraciəti daxildir.[10] Bu nümunələr vətəndaş cəmiyyətinin və dini qurumların tarixi barışıqda rol oynaya bildiyini göstərir.[11] Ancaq dövlətin qərarları və fəaliyyəti ilə bağlı siyasi məsuliyyətin ifadəsi yalnız ictimai təşkilatların təşəbbüsünə həvalə edilə bilməz.[12]

[7] https://www.rferl.org/a/1104309.html
[8] https://www.bbc.com/news/world-europe-11689153
[9] https://www.ictj.org/latest-news/serbian-declaration-srebrenica-massacre-imperfect-important-step
[10] https://www.ncronline.org/news/polish-german-bishops-remember-great-act-forgiveness-happened-20-years-after-wwii
[11] file:///C:/Users/safemode/Downloads/jjrs.crj-vol-64-furuya-yasuo-c.pdf
[12] https://www.britannica.com/topic/German-Christian

Azərbaycan-Ermənistan münasibətlərində rəsmi dövlət müraciəti ilə cəmiyyətlərarası dialoqun paralel aparılması daha səmərəli ola bilər. Rəsmi üzrxahlıq tarixi yaddaş, arxiv materialları, məcburi köçkünlərin hüquqları, itkin düşmüş şəxslərin taleyi və xatirə mədəniyyəti haqqında müzakirələr üçün münasib siyasi mühit yarada bilər. Bu dialoq həm də düşmənçilik münasibətinin yeni nəsillərə ötürülməsinin qarşısını almağa xidmət etməlidir.

Keçmiş Yuqoslaviya təcrübəsi təsdiqləyir ki, siyasi liderlərin məsuliyyəti açıq şəkildə qəbul etməsi barışığa təkan verir. Lakin etimadın bərpası üçün ardıcıl dövlət tədbirlərinə, müstəqil ictimai təşəbbüslərə və zərərçəkmişlərin prosesdə iştirakına da ehtiyac vardır.

Ermənistanın rəsmi üzrxahlığı üçün əsaslar və praktik çərçivə

Müqayisəli təcrübə əsasında belə qənaətə gəlmək olar ki, uzunmüddətli işğalın, məcburi köçkünlüyün və mülki əhaliyə qarşı ağır pozuntuların Azərbaycan cəmiyyətində yaratdığı nəticələr sülh prosesinin tarixi ədalət ölçüsündə tanınmalıdır. Ermənistan dövlətinin ünvanlı üzrxahlığı bu hadisələrin inkarı və ya əhəmiyyətinin azaldılması əvəzinə, zərərçəkmiş insanların ləyaqətinə hörmət ifadə edən siyasi mövqe ola bilər. Bu mövqenin tələb edilməsi beynəlxalq təcrübəyə söykənən mənəvi-siyasi əsaslara malikdir.

Rəsmi müraciətin məzmununda bir neçə məsələnin aydın ifadə olunması məqsədəuyğundur: Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət; təxminən otuzillik işğal dövrünün və onun humanitar nəticələrinin tanınması; öldürülmüş, yaralanmış və məcburi köçkün vəziyyətinə düşmüş şəxslərin iztirablarına görə açıq üzrxahlıq; mülki əhaliyə qarşı ağır hüquq pozuntularının pislənməsi; hadisələrin araşdırılmasına və onların təkrarlanmamasına yönələn praktik öhdəliklər.

Üzrxahlıq dövlət başçısının açıq bəyanatı və ya ikitərəfli sənəd vasitəsilə ifadə oluna, qurbanların xatirəsinin yad edilməsi ilədə mümkündür. Onun təsirini artırmaq üçün humanitar məlumat mübadiləsi, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasında əməkdaşlıq, tarixi faktların peşəkar araşdırılması və düşmənçilik ritorikasının azaldılması kimi konkret addımlar atılmalıdır. Sülh sazişi və münasibətlərin normallaşması bu tədbirlərin həyata keçirilməsi üçün əlverişli siyasi şərait yarada bilər.

Nəticə

Almaniya, Yaponiya və keçmiş Yuqoslaviya məkanının təcrübəsi göstərir ki, tarixi haqsızlıqlara görə üzrxahlıq müxtəlif şəraitlərdə barışıq dilinin formalaşmasına və

qarşılıqlı etimadın möhkəmlənməsinə kömək edə bilər. Bu nümunələr bir-biri ilə eyni deyil və Ermənistan-Azərbaycan münaqişəsinə mexaniki şəkildə tətbiq oluna bilməz. Bununla belə, onların ortaq cəhəti aydındır: keçmişdə baş vermiş ağır hadisələrin tanınması gələcək münasibətlərin daha sağlam əsasda qurulmasına imkan yaradır. Buna görə Ermənistan dövlətinin Azərbaycandan və işğalın humanitar nəticələrini yaşamış insanlardan rəsmi üzr istəməsi sülh prosesinin mühüm mənəvi-siyasi tərkib hissəsi kimi əsaslandırıla bilər.

Bununla yanaşı, məsuliyyət yalnız dövlət institutlarının mövqeyi ilə məhdudlaşmamalıdır. Münaqişə dövründə zorakılığa haqq qazandırmış, etnik nifrəti yaymış, mülki əhaliyə qarşı qanunsuz hərəkətləri təbliğ etmiş və ya bu cür əməlləri açıq şəkildə dəstəkləmiş Ermənistan cəmiyyətinin müəyyən siyasi, ictimai, media və intellektual dairələrinin də öz mövqelərini yenidən qiymətləndirməsi və zərərçəkmiş insanlardan üzr istəməsi mənəvi baxımdan əsaslı olardı. Belə bir gözlənti bütün erməni cəmiyyətinə kollektiv təqsir aid etmək demək deyil. Fərdi və qrup səviyyəsində məsuliyyət konkret davranışa, ifadə edilmiş mövqeyə və həmin davranışın ictimai təsirinə əsaslanmalıdır. Əksinə, zorakılığı rədd etmiş, sülhü müdafiə etmiş və insan hüquqlarının qorunmasına çalışmış şəxslərin mövqeyi fərqləndirilməlidir.

Nəticə etibarilə, üzrxahlıq nə hüquqi məsuliyyəti, nə kompensasiyanı, nə təhlükəsizlik təminatlarını, nə də humanitar tədbirləri əvəz edir. Onun real mənası tarixi faktların tanınması, qurbanların ləyaqətinə hörmət, təkrarlanmama iradəsi və ölçülə bilən praktik addımlarla birlikdə meydana çıxır. Davamlı sülh yalnız dövlətlərarası razılaşmaya deyil, eyni zamanda məsuliyyətli ictimai yaddaşa və qarşı tərəfin yaşadığı iztirabı qəbul etmək hazırlığına əsaslanmalıdır.

Müəlliflər:

Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin şöbə müdiri

Hüseyn Sultanlı, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin məsləhətçisi